# Azərbaycan - Tacikistan münasibətləri

**Qısa tarixi məlumat:**

İki ölkə arasında diplomatik münasibətlər 29 may 1992-ci ildə yaradılmışdır. Azərbaycan Respublikasının Tacikistan Respublikasındakı Səfirliyi 2007-ci ildə açılmışdır. Tacikistan Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyi 2008-ci ildə açılmışdır. Hal-hazırda, Azərbaycan Respublikasının Tacikistandakı səfiri Abbasəli Həsənovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Dövlət başçıları:**

**2007-ci il 15-16 mart** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistana rəsmi səfər etmişdir.

**2007-ci il 13-14 avqust** – Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfər etmişdir.

**2007-ci il 4-5 oktyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistana işgüzar səfər etmişdir (MDB Dövlət Başçıları Şurasının iclası).

**2012-ci il 12-13 iyul** – Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana rəsmi səfər etmişdir.

**2012-ci il 15-16 oktyabr** – Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşü).

**Hökumət başçıları:**

**2004-cü il 13-15 sentyabr** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Tacikistana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 8-ci zirvə görüşü).

**2006-cı il 4 may** - Tacikistanın Baş naziri Akil Akilov Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu zirvə görüşü).

**2006-cı il 24-25 may** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Tacikistana işgüzar səfər etmişdir (MDB Hökumət Başçıları Şurasının iclası).

**2011-ci il 3 sentyabr** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Tacikistana işgüzar səfər etmişdir.(MDB Hökumət Başçıları Şurasının zirvə görüşü).

**Xarici İşlər Nazirləri:**

**2001-ci il 4 may** - Azərbaycan Respublikası xarici işlər naziri Vilayət Quliyev Tacikistana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Nazirlər Şurasının 11-ci toplantısı).

**18-20 may 2010-cu il** - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Tacikistana işgüzar səfər etmişdir (İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 37-ci iclası).

**2-3 aprel 2014-cü il** – Tacikistan Respublikasının xarici işlər naziri Sirociddin Aslov Azərbaycana səfər etmişdir.

**Parlamentlərarası əlaqələr:**

Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri Aydın Mirzəzadədir.

**Humanitar sahədə əməkdaşlıq:**

**Səfərlər:**

**10-12 avqust 2009-cu ildə** Düşənbə şəhərində MDB ölkələrinin Mədəni Əməkdaşlıq üzrə Şurasının XXIV iclasında iştirak etmək üçün Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Tacikistanda səfərdə olmuşdur.

**Mədəni və humanitar tədbirlər:**

**18-22 oktyabr 2007-ci ildə** Azərbaycanda Tacikistan mədəniyyət günləri keçirilmişdir.

**9-12 noyabr 2008-ci ildə** Tacikistanda Azərbaycan mədəniyyət günləri keçirilmişdir.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında 35 sənəd imzalanmışdır.

**Link:** www.azembassy.tj

*Son yenilənmə tarixi: 18.09.2014*